# H. ZƏRDABİNİN TƏRBİYƏ VASİTƏLƏRİ – MİLLİ TEATR VƏ MƏTBUAT YARATMAQ UĞRUNDA MÜBARİZƏSİ

**Rəna Qurbanova,**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
E-mail: rena_qurbanovabk.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.dos.* Y.T. Rzayeva,
*ped.ü.fəls.dok.dos.*T.Ə. Vahabova

***Açar sözlər:*** *H. Zərdabi, tərbiyə vasitələri, milli teatr, milli mətbuat, pedaqoji fikir, Azərbaycan maarifçiləri*

***Ключевые слова:*** *Г. Зардаби, средства воспитания, национальный театр, национальное издательство, педагогическая мысль, азербайджанские просветители*

***Key words:*** *H. Zardabi, education means, national theatre, national press, pedagogical idea, Azerbaijani educators*

H.Zərdabinin maarifçilik fəaliyyətində mühüm istiqamətlərdən biri də Azərbaycanda onun təşkilatçılığı və rəhbərliyi ilə milli teatrımızın bünövrəsinin qoyulmasıdır. Peterburqda ali təhsil alarkən vaxtaşırı teatr tamaşalarına gedən ayıq ziyalı xalqın tərbiyə olunmasında, oyanışında, tərəqqisində, onun öz sözləri isə desək, "zindəganlıq davasında" teatrın əhəmiyyətli bir vasitə olduğunu yaxşı dərk edirdi. Doğrudur, XIX yüzilliyin 60-70-ci illərində Azərbaycanın bəzi böyük şəhərlərində seyrək də olsa, teatr tamaşaları göstərilirdi. Lakin rus dilində göstərilən bu tamaşalar kütlə üçün yox, rus dilli elitar təbəqə üçün nəzərdə tutulurdu. Milli oyanış və intibah, kütləvi tərbiyə yolunda bu cür tamaşalar bir o qədər də əhəmiyyət daşımırdı. H. Zərdabi və onun gimnaziyasındakı şagirdləri N. Vəzirov, Ə. Adıgözəlov və b. bu sahədə diqqətəlayiq iş görərək milli Azərbaycan teatrının təməldaşı oldular.

Həsən Zərdabi bəy teatr əsərlərini səhnəyə hazırlamaqla iki məqsəd izləyirdi: bu əsərlərin səhnədə yaratdığı effektlə kütlənin tərbiyəsinə mümkün qədər təsir göstərmək, başqa sözlə, teatrdan kütləni ayıltmaqdan ötrü bir tərbiyə tribunası kimi istifadə etmək; ikincisi, tamaşalardan toplanan ianə ilə şəhər məktəbində oxuyan imkansız müsəlman şagirdlərinə müəyyən qədər maddi köməklik göstərmək. Bu şagirdlərdən çoxunun kasıb övladları olduğunu nəzərə çatdıran H. Zərdabi "Bakıda müsəlman teatrının binası" məqaləsində yazırdı: "Cəmiyyəti-xeyriyyə bina tutmadı. Kənardan bir qəpik verən yox, bir tərəfdən oxuyan uşaqlar artıq, kimisinin paltarı, kimisinin mənzili, kimisinin yeməyə xörəyi və kimisinin gimnaziyaya verməyə oxumaq pulu yox və köməksiz də keçinmək mümkün deyil" (1).

Zərdabi başda olmaqla teatr truppası (şərti mənada) 1-ci və 2-ci tamaşanın müvəffəqiyyət qazandığını və hər dəfə satılan biletlərdən xeyli pul yığıldığını görüb ruhlandılar. Bu əsərləri sonralar da bir neçə dəfə tamaşaya qoydular. "Kavkaz" qəzeti 13 may 1873-cü il tarixli nömrəsində yazırdı: «Bakıdan yazırlar ki, keçən aprel ayının 17-də Bakı "Cəmiyyəti"nin salonunda həvəskarlar xeyriyyə məqsədilə ikinci teatr tamaşası vermişlər. Bu dəfə M.F. Axundovun "Sərgüzəşti-mərdi-xəsis" adlı beş pərdəli komediyası oynanılmışdır. "Cəmiyyət"in salonu tam dolu idi və xeyriyyə üçün 120 manat gümüş pul toplanılmışdır" (2, 445).

M.F. Axundov "Kafkaz" qəzeti vasitəsilə onun əsərinin müsəlman şagirdləri tərəfindən "türk dilində" səhnəyə qoyulduğundan xəbər tutub hədsiz sevinmiş öz həmməsləkinə məktub yazaraq razılığını ifadə etmiş, heyfsilənmiş və Həsən bəyi məzəmmət etmişdi ki, bu xəbəri əvvəldən mənə bildirsəydin, mən özüm də gəlib öz gözlərimlə onu görərdim. Əlavə etmişdi ki, Həsən bəy Tiflisə gələndə şagird truppasında hər kəsin öz rolunu necə oynadığı barədə ona ətraflı məlumat verər. Mirzə Fətəli bu tədbirin onun üçün böyük hadisə olduğunu xüsusi şəkildə qeyd edirdi. Realnı gimnaziya müəlliminin bu təşəbbüsü təkcə Azərbaycan dramaturqu və

maarifçisi üçün deyil, ümumiyyətlə, xalqımızın mədəniyyət, ədəbiyyat və maarifçilik tarixi üçün son dərəcə uğurlu, yaddaqalan bir hadisə idi.

Silsilə şəklində bir neçə dəfə oynanan tamaşalara biletlər satılır, yığılan bütün pullar kasıb şagirdlərin ehtiyacına xərclənirdi. H. Zərdabi həmin teatr oyunlarının səmərəsini, doğurduğu nəticəni və camaatın ona münasibətini belə şərh edirdi: "Əvvəlinci teatrımız yaxşı çıxdığına Bakıda sakin olan, kənarlardan gələn müsəlmanların iltimasına görə "Hacı Qara"nı bir dəfə də oynadıq və bu səfər yüz manata qədər pul yığdıq. Sonra haçan gimnaziya uşaqlarının fəqirlərinə pul lazım olanda şagirdlər piş əz vəqt xəbər edib siyahı verirdilər ki, nə qədər pul gərəkdir. Ona görə teatr çıxarıb vüsul olan pulları paylayırdıq. Bu tövr ilə ildə 2-3 dəfə müsəlman bayramlarında teatr çıxardıq. Amma neçə il belə teatr çıxardıq isə də, Bakı müsəlmanlarına teatra gəlməyi" öyrədə bilmədik. Çünki o vaxtda onlar gün batandan sonra evdən çölə çıxmağı günahi-kəbirə hesab edirdilər" (2).

H. Zərdabi teatrda həm də rejissorluq edirdi. Oynanan əsərin seçimi dekorasiya (ibtidai şəkildə olsa da), bədii tərtibat və s. məsələləri o özü həll etməli olurdu. Əsərin seçiminə xüsusi diqqət yetirir, onu şagirdlərin hansı dərəcədə oynaya biləcəyini, eyni zamanda oynanan əsərin tamaşaçıya nə verəcəyini, necə təsir edəcəyini nəzərə alırdı. M.F. Axundova 7 iyun 1873-cü il tarixli məktubunda həvəskar rejissor bunları dolğun şəkildə nəzərə çatdırır. Dramaturqun bəzi əsərlərini "ifa üçün münasib bilmir", "tamaşaçıların əqlini qidalandıra biləcək" əsərlərə üstünlük verir. Anlayır ki, "bizim tamaşaçıların əksəriyyəti" daha çox hissə təsir edən şeyləri sevir, bir sözlə, effekt axtarır". Bir maarifçi kimi həvəskar rejissor tərbiyə vasitəsi olaraq tamaşaçıya hansı mənəvi qidanı verməyi yaxşı dərk edir.

Şuşa sakini Yəhya bəy Tahirov H. Zərdabiyə ünvanladığı 8 yanvar 1873-cü il tarixli məktubunda bu cəfakeş millət xadiminin vətənpərvərliyini, maarifpərvərlik hissini, geridə qalmış xalqı mənəvi, maarif, sənaye və incəsənət baxımından dirçəltmək, cəhalətdən qurtarmaq cəhdini alqışlayır və əlavə edirdi ki, bunun üçün sizə təşəkkür edənlər az olacaq, ancaq belə bir xeyirxah başlanğıc və əməllərə görə öz vicdanınız, həmçinin gələcək nəsillər qarşısında qürur duyacaqsınız (3, 102-103).

H. Zərdabinin yaşayıb fəaliyyət göstərdiyi XIX əsrin II yarısı və XX əsrin başlanğıcında, xalqların ölüm-dirim uğrunda "zindəganlıq davası" apardığı bir tarixi dövrdə bu "dava"dan qalib çıxmaq uğrunda ən mühüm tərbiyə və təbliğat vasitələrindən biri də mətbuat idi. Azərbaycan milli intibahının "sübh çağı"nda (F. Köçərli) avam kütləni ayıltmağın, məktəb və maarifə, milli mücadiləyə, milli qeyrət və özünüdərkə səfərbər etməyin mühüm vasitələrindən biri, ən mötəbər tribunası mətbuat idi.

Bu həqiqəti H. Zərdabi yüksək ziyalı erudisiyası ilə fəhm edərək bu yöndə fəaliyyətə başladı. O, Azərbaycanda xalqın öz dilində mətbuat orqanı yaratmağın ilk təşəbbüskarlar nəslini təmsil etməklə həm də onun yaradıcısı və icraçısıdır. Bakı realnı gimnaziyasında müəllim işləyərkən o, bu ideyanı reallaşdırmaq uğrunda uzun və əzablı mübarizə meydanına atıldı. Qəlbi öz doğma xalqını süstlükdən, gerilikdən, əsarət, zəlalət və ətalət girdabından qurtarmaq, yeni dünyaya, azadlığa qovuşdurmaq eşqi ilə döyünən bu gur "maarif məşəli" "Əkinçi"nin nəşrə başlamasından 30 il sonra qələmə aldığı "Rusiyada əvvəlinci türk qəzeti" adlı mətbu məqaləsində mətbuat yaratmaq ideyası ilə bağlı cəhdini ətraflı şəkildə şərh edirdi.

Göründüyü kimi, bu millət pərvanəsi həyata keçirmək istədiyi işə böyük ümid və inamla girişmişdi. O, qəzet nəşr etmək təşəbbüsünə 1873-cü ilin baharında başladı. Həmin il aprel ayının 12-də bu barədə rəsmi ərizə ilə Bakı qubernatoru D.S. Staroselskiyə (1832-1884) müraciət etdi. 1872-1876-cı illərdə Bakı qubernatoru olmuş Staroselskinin arvadı gürcü qızı olduğundan qafqazlılara rəğbətlə yanaşırdı. Onun Həsən bəyə münasibəti də yaxşı idi. Guya "əkin və ziraətdən" danışacaq, yəni siyasətdən uzaq bir qəzet olması barədə təsəvvür yaratmaqdan ötrü onun adını "Əkinçi" qoymağı da Həsən bəyə qubernator özü təklif etmişdi. Hətta Bakı quberniyasında milli dildə mətbuat orqanının yoxluğuna görə senzor olmadığından qəzetə senzorluğu da o, öz boynuna götürmüşdü.

H. Məlikovun adını çəkdiyimiz 12 aprel 1873-cü il tarixli rəsmi ərizəsindən bəlli olur ki, Quba mülkədarı, general-mayor A. Bakıxanov qəzet nəşr etməkdən ötrü ona 1000 manat yardım göstərmişdir. Sonra ərizədə qəzetin nəşri ilə əlaqəli şərtlər irəli sürülür və izah edilirdi.

Həsən bəy həmin şərtlərin aşağıdakılar olduğunu söyləyirdi: «Birincisi, qəzetin redaktorluq və naşirlik vəzifəsini öz öhdəmə götürürəm; ikincisi, qəzet Bakı şəhərində Zaqafqaziya ölkəsinin bütün müsəlman xalqlarının başa düşə biləcəyi tatar (türk – R. Qurbanova) dilinin Azərbaycan ləhcəsində nəşr olunacaqdır; üçüncüsü, ilk vaxtlar qəzet iki həftədə bir dəfə bir çap vərəqi həcmində buraxılacaqdır; dördüncüsü, ilk vaxtlar qəzetin abunə qiyməti, göndərmək və çatdırmaq da daxil olmaqla ildə iki manat olacaqdır; beşincisi; qəzetin nəşri, kağızı üçün xərclər, xidmətçilər və mətbəə binası tutmaq üçün xərclər çıxılmaqla qəzet üçün toplanan pul Bakıda təsis edilmiş müsəlman şagirdlərinə yardım cəmiyyətinin xeyrinə sərf olunacaqdır; altıncısı, qəzet "Əkinçi" ("Пахарь") adlanacaqdır; qəzetin nəşrinə 1873-cü ilin sentyabrında başlanacaqdır" (4, 183-184) Qəzetin hökumət rəsmilərinə təqdim edilmiş proqramında onun məramı və məqsədi də 4 maddədə yığcam şəkildə göstərilmişdir.

1873-1874-cü illər ərzində Bakı Məktəblər Müdiriyyəti, Qafqaz Təhsil Dairəsi, Bakı Quberniya İdarəsi, Qafqaz Canişinliyinin Baş İdarəsi Dəftərxanası, Qafqaz Canişinliyinin Senzura Komitəsi arasında məsələ ilə bağlı uzun-uzadı rəsmi yazışmalar baş verdi. (1, 191-197) Bu yazışmalarda H. Zərdabinin ərizədə göstərdiyi məsələlərə münasibət, Həsən bəyin şəxsiyyəti və fəaliyyəti, qəzetin nəşrinin ictimai-siyasi cəhətdən münasib olub-olmaması müzakirə olunur. Nəhayət, 5 oktyabr 1874-cü ildə Qafqaz Canişinliyi Baş İdarəsinin Dəftərxanası Senzura Komitəsinə göndərdiyi 5410 nömrəli məktubda qəzetin nəşrinə icazə verir. Bundan sonra naşir və redaktorun qarşısında yeni çətinlikləri həll və dəf etmək durur: mətbəə yaratmaq, onu lazımi avadanlıqla təchiz etmək, hürafat (şirift) və mürəttib tapmaq. Bu cür texniki məsələləri həll etdikdən sonra isə abunəçilər tapmaq. Bu barədə sonralar o, özü yazırdı: "Bəs qəzeti necə çıxardım? Pul yox, çapçı yoldaşı yox, kitabxana yox, hürafat yox, əmələ yox. Bir-iki yüzdən artıq oxuyan olmayacaq" (5). Milli mətbuatımızın banisi böyük əziyyətlər, yenilməz iradə, sonsuz millət sevgisi hesabına qarşıda duran bütün çətinlikləri dəf edir və nəhayət, öz məqsədinə nail olur.

"Əkinçi"nin ilk nömrəsi 1875-ci ildə iyul ayının 22-də işıq üzü gördü. Hənifə xanım öz xatirələrində qəzetin nəşrini böyük həyəcan və səbirsizliklə gözləyən Həsən bəyin həmin gün necə sevindiyini, fərəhdən gözləri yaşardığını səmimiyyətlə xatırladır.

1877-ci ilin 29 sentyabrına, yəni bağlanana qədərki, 2 il 2 ay ərzində qəzetin 56 nömrəsi çap olunmuşdur. Qəzet ayda iki dəfə ayda 300-400 tirajla işıq üzü görürdü. Onun beş əsas şöbəsi var idi: "Daxiliyyə", "Əkin və ziraət xəbərləri", "Məktubat", "Elmi xəbərlər", "Tazə xəbərlər".

Qəzetin məzmun və xarakterindən, burada dərc olunan rəngarəng materialların səciyyəsindən, istiqamət və dəyərindən danışarkən bir məsələyə hökmən diqqəti cəlb etmək lazım gəlir. Belə ki, çar senzorları qəzetin proqramı və məramı ilə tanış olduqdan sonra belə qərar və göstəriş vermişdir ki, gərək bu qəzetin məqalələri yalnız əhalinin məişətinin iqtisadi və ən yaxın mülki məsələlərinə aid olsun və dəbdə olan siyasi görüşlərlə, yaxud bütün müasir həyat quruluşunu müzakirə etmək cəhdləri ilə doldurulmasın" Bununla belə qəzet həm öz proqramından, həm də çar senzurasının cızdığı sərhədlərdən çox-çox kənara çıxıb adi təsərrüfat, məişət qəzeti olmaqdan ziyadə böyük mədəniyyət və maarif hadisəsinə, milli-mədəni təbliğat və təşviqat kürsüsünə çevrildi.

Qəzetdə çap olunan materiallar mövzu, məzmun, tərbiyəvi istiqamət və ideya çalarına görə rəngarəng idi. Bunların bir qismi kənd təsərrüfatının müxtəlif məsələlərinə, əkin-tikin işlərinə, əkinçiliyə, maldarlığa və s. aid qiymətli elmi məqalələrdən ibarət idi. Müəllif kəndlilərə təsərrüfatı becərmək qaydaları, maldarlıq və əkinçilik problemləri ilə əlaqədar maraqlı, gərəkli, elmi, zootexniki və aqrotexniki bilgilər verirdi. "Daxiliyyə" rubrikasında ölkədaxili məsələlərdən söhbət açılır, daxili problemlərlə əlaqədar çeşidli məlumatlar verilirdi. Məsələn, məktəb, təhsil, milli nifaq, dini nifaq (sünniliktşiəlik), dini və dünyəvi elmlərə münasibət və bunlardan hansının müasir dövr üçün daha faydalı olması, müsəlman aləmində geriliyin və cəhalətin səbəbləri, milli birlik, dini birlik, cəhalətdən qurtuluşun yolları, xalqın gələcəyi və onun xilası və s.

Bir sözlə, naşir Rusiya müsəlmanları arasında milli dildə ilkin olaraq "nəşvü nüma" tapan bu mətbuat orqanını xalqın, mənsub olduğu diyarın aynasına çevirmək eşqi ilə çalışırdı. Bu

münasibətlə qəzetin 18 dekabr 1875-ci il tarixli nömrəsində yazırdı: "Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun, yəni ol vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə, onların hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün. Əlbəttə, qəzetin belə ayna kimi olmağı xalq ilədir, yəni hər kəs gərək öz dərdini və xahişini qəzetlərində bəyan etsin ki, onların barəsində işdən xəbərdar olanlar mübahisə etməklə onların yaxşı yamanlığını aşkar etsinlər, ta ki, o işi görən onun yaxşı, ya yamanlığından agah olub sonra peşmanlıq çəkməsin" (6, 92).

Naşir başqa xalqların qəzetlərinin təcrübəsinə əsasən öz qəzetində də fikir müxtəlifliyi ilə müşayiət olunan mübahisələrin, müzakirələrin olmasına çalışır, bunun həm qəzetin daha məzmunlu çıxmasına, həm də xalqın oyanmasına müsbət təsir göstərəcəyini qeyd edirdi. Qəzetə hücum edən mühafizəkarlara, mürtəcelərə, avamlara və cəhalətpərəstlərə, şirvanlı bir hacının timsalında cavab verərək deyirdi: "Pəs müsəlmanların düşməni mən deyiləm, məzkur hacı kimi adamlardır ki, bizi millətlər arasında gülüş yeri edib elmdən və dünyadan bixəbər qoyub sərgərdan və payımal ediblər" (6, 93).

"Əkinçi" redaktorunun tarixi missiyası öz xalqını bu sərgərdanlıqdan və "payimal" rəzalətindən qurtarıb müasir elmə və dünyaya qovuşdurmaq idi. Elə buna görə də qəzetdə elm, maarif, məktəb, təhsil, "elmi-əbdan" (dünyəvi elmlər) və s. məsələlərlə bağlı silsilə yazılar gedir, bunların əhəmiyyəti kütləyə başa salınırdı.

"Əkinçi"nin ətrafında elitar bir ziyalı dəstəsi, Azərbaycanın o zamankı mütərəqqi görüşlü qələm sahibləri toplaşmışdı. Bunlardan M.F. Axundovu, S.Ə. Şirvanini, N. Vəzirovu, Ə.A. Goranini, M.Ə. Şirvanini, gəncəli Əhsənül-Qəvaidi (əsl adı Məhəmməd Sadıx Gəncəvi), dərbəndli Heydərini, Məhbus Dərbəndini, Məmnun Əlqədərini və s. göstərmək olar.

Milli bir təəssübkeş kimi Həsən bəyin məqsədli olaraq ciddi şəkildə diqqət yetirdiyi məsələlərdən biri də qəzetin dili idi. "Əkinçi" sadə, aydın, hamının başa düşə biləcəyi, ümumxalq ədəbi dilinin əsas normalarını özündə ehtiva edən Azərbaycan türkcəsində nəşr olunurdu. Bu səbəbə irticaçı qüvvələrin sözləri ilə desək, bu "şapqalı rus"a iradlar tutulur, o, dəbdəbəli dildə yazmadığına, ərəbizm-farsizmlərdən mümkün qədər uzaq durub sadə xalq dilinə üz tutduğuna görə bir çoxlarının töhmət və tənəsi ilə üzləşirdi. Lakin o, doğma xalqının işıqlı gələcəyi naminə öz müqəddəs yolundan dönmədi. Ə. Topçubaşov doğru olaraq göstərir ki, Həsən bəyi məsxərəyə qoyan, "ərəb-fars dilini bilmədiyi üçün tərəkəmə (kəndli) jarqonundan istifadə edir" – deyən dönük ziyalıların, millətə yad oxumuşların, cahil ruhanilərin tənqidçi, iradçı dəstəsinin hücumları onu dayandıra bilmədi». Nəticədə "belə tənqidçilərin, böyük hissəsi, xüsusilə də onların indiki övladları dərk etdilər ki, milli dili bərpa etmək, milli şüuru oyatmaq işində Həsən bəyin xidmətləri misilsizdir". "Əkinçi"nin dili sonradan dövrün qələm sahibləri, milli ziyalı dəstəsi, mətbuatı, publisistikası, mədəni-pedaqoji və ictimai düşüncə sferası üçün bir örnək, baza rolunu oynadı. Yeni epoxada ədəbi-mədəni, maarifçi-pedaqoji mühitdə formalaşmalı və işlənməli olan ədəbi dildən ötrü zəmin yaratdı. Bu mənada mayak rolunu oynayıb ona yol göstərdi. "Əkinçi"nin ömrü 2 il 2 ay çəkdi.

1876-cı ildə D.S. Staroselskinin Bakı qubernatoru vəzifəsini tərk etməsi rus-türk müharibəsinin başlanması "Əkinçi" qəzeti ətrafında yaranan təhlükəni artırdı. Naşir isə çarizmin siyasi və müstəmləkə rejiminin qanunları, abhavası ilə yaşayan rəsmi hökumət idarələrində "siyasi cəhətdən şübhəli və etibarsız" şəxslər siyahısına düşdü. 1877-ci ilin 29 sentyabrında qəzet bağlandı.

**Problemin aktuallığı:** Məqalədə ilk dəfə Həsən bəy Zərdabinin milli teatr və mətbuat yaratmaq uğrunda mübarizəsi təhlil və tədqiq olunub, böyüyən nəslin təhsil və tərbiyəsində milli teatrın və mətbuatın oynadığı rol araşdırılır.

**Problemin elmi yeniliyi:** Məqalədə Həsən bəy Zərdabinin böyüyən nəslin təhsil – tərbiyəsində məktəblərlə yanaşı, milli teatr və mətbuatın da oynadığı rol araşdırılıb üzə çıxarılır

**Problemin praktik əhəmiyyəti:** Məqalədən Azərbaycan məktəb və pedaqoji fikir tarixinin kursunda tədrisində mühazirə və seminar məşğələlərində istifadə etmək olar.

## ƏDƏBİYYAT

1. Современники о Г. Зардаби (Сборник). АН Азерб.ССР. Инс-т Философии и Права. Баку: Элм, 1985.
2. Zərdabi H. Bakıda müsəlman teatrosunun binası. "Həyat" qəz., 1905, 13 dekabr
3. Həsən bəy Zərdabinin bioqrafiyası və epistolyar irsi / Nəşrə hazırlayanlar: Məmmədova M., Ramazanova A. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Nurlan, 2006.
4. Zərdabi H. Rusiyada əvvəlinci türk qəzetəsi. "Həyat" qəz., 1905, 28 dekabr, 1906, 4 yanvar
5. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif, 1974.
6. "Əkinçi" qəzeti (1875-1877). Tam mətni. / Kirill əlifbası ilə tərtib edəni: Həsənzadə T. Bakı, 1975, Latın əlifbası ilə təkrarnəşr, Bakı: Avrasiya-Press, 2005.
7. Hənifə xanım Məlikova –Abayevanın xatirələri. Həsən bəy Zərdabi və "Əkinçi" (məqalələr, çıxışlar, sənədlər, xatirələr və ithaf şeirləri). Bakı: Adiloğlu, 2005.
8. Zərdabi Həsən bəy və "Əkinçi". (Bioqrafik məqalələr, məktublar, xatirələr, tədqiqatlar). Bakı: SAMF, 2010.

**Р. Гурбанова**

## СРЕДСТВА ВОСПИТАНИЯ Г.ЗАРДАБИ – БОРЬБА ЗА СОЗДАНИЕ НАЦИОНАЛЬНОГО ТЕАТРА И ИЗДАТЕЛЬСТВА

***РЕЗЮМЕ***

Г.Б. Зардаби азербайджанский просветитель. В его просветительской деятельности особое место занимает его борьба за создание средств воспитания в новом содержании. Он в национальной среде создал книги, учебники, театр, издательство, просветительские очаги в современном содержании, проделал рациональные работы на этом пути. Он создатель национального театра и национального издательства.

В статье раскрывается борьба Гасан Бека за национальный театр и издательство. Объясняется пути использования театра и издательства как средства воспитания.

**R. Gurbanova**

## H. ZARDABI'S TRAINING MEANS THE STRUGGLE FOR THE FORMATION OF THE NATIONAL THEATER AND PRESS

***SUMMARY***

H. Zardabi is an Azerbaijan enlightener. His struggle for creating new educational content has a special importance in his career. He has done a lot of important work in the way of creating contemporary books , textbooks, press, educational institutions in the National Press. The article deals with the struggle of Hasan Bey for creating national theatre and press. At the same time, he is commenting on how the theatre and press are used as a means of education.

**Redaksiyaya daxil olub:** 21.02.2018